# Müstəbidin sonu



**Kinoda montajçı, ssenariçi, assistent kimi çalışmış, quruluşçu rejissor kimi qanqster mövzularında özünü təsdiqləmiş Avstriya əsilli amerikalı Cozef fon Sternberqin (1894-1969) görkəmli alman humanist yazıçısı Henrix Mannın (1871-1950) «Həşərat müəllim və ya bir müstəbidin sonu» romanı əsasında, Robert Liebmannın ssenarisi üzrə 1930-cu ildə çəkdiyi «Mavi Mələk» filmi kino tarixinə parlaq səhifə yazdı.**

Çalışdığı gimnaziyada azad fikrə qarşı çıxmaqla şagirdlərin nifrətini qazanmış əlli yeddi yaşlı, məhdud düşüncəli professorun satirik hiperbola metodu ilə ifşa olunduğu romanın bütöv epizodlarından, çoxsaylı personajlarından, mürəkkəb süjetindən imtina edilməklə yalnız mövzunu, fabulanı və ideyanı qoruyan film özünün uğurlu audiovizual həllini tapdı.

Filmin ilk epizodunda səhər-səhər xidmətçinin hazırladığı kofeni içən subay professor İmmanuel Rathın (Emil Jannings) fit çalaraq nəğməsini gözlədiyi quşun ölümü ilə rastlaşması metaforik həyəcan siqnalına çevrilir. Dərsin başlamasını gözləyərkən üzərində Lolanın (Marlen Ditrix) fotoşəkli olan açıqcaları nəzərdən keçirən şagirdlərdən birinin jurnalın üstünə professorun karikaturasını çəkərək «zibil» sözünü yazması ziddiyyəti səciyyələndirir. Cibindən çıxardığı ağ dəsmala fınxıraraq burnunu silən professorun jurnalın üzərindəki karikaturanı və sözü pozdurması, «dram nəzəriyyəsi»ni xırdalayarkən qəflətən şığımaqla şagirdin əlindən alması ilkin hadisəni yaradır.



Lolanın fotoşəklini blaknotun arasına qoyaraq yenidən fınxırmaqla mənfi portretini yaşadan professorun tələbələrinin gecələr baş çəkdikləri, yaraşıqlı fahişə Lolanın ehtiraslı nəğmələr oxuduğu «Mavi Mələk» adlı gecə klubuna baş çəkməsi hadisələrin cərəyan etdiyi mühitin fabulalı təqdimatına şərait yaradır. Belə ki, Lolanın «Mən bu axşam əsl kişi tapacağam» mətnli mahnını oxuduğu məqamda kluba gələn professoru görən şagirdlərin qaçıb gizlənməsi ziddiyyəti davam etdirir. Lolanın qrim - yataq otağına gəlib özünü təqdim edərək: «Siz mənim şagirdlərimi yoldan çıxarırsız»- deyən professorun ehtiraslı qadının təsir dairəsinə düşməsi gözlənilməz vəziyyət yaradır. Buruq pillələrlə enən professorun başına Lolanın atdığı alt tumanının şagirdlər tərəfindən oğurlanması gələcək epizodlarda istifadə olunacaq əşyanı detallaşdırır. Məhz bu əşyanı geriyə qaytarmaq bəhanəsiylə ertəsi gün geriyə qayıdan professorun üzünə, pusquda duran uşaqların gözü qarşısında Lolanın pudra üfürməsi personajlararası münasibəti yeniləşdirir.

Artıq vurulduğu Lolanı klubun daimi müştərilərindən biri, Kəlküttə reysindən qayıtmış gəmi kapitanına qısqanan professorun qalmaqal salması, polisin gəlişi, sillələnib qovulan tələbələrin müəllimlərini «zibil» deyə çağırmaları yeni münasibətlər sistemini attraksionların montajında qabardır. Ürək tutmasından sonra təlxəyin nəzərləri altında kabare direktoru ilə şərab içən professorun, Lolanın «Başdan - ayağa sevgi üçün doğulmuşam» - mətnli mahnısından sonra təntənəylə salondakılara təqdimatı, yeni münasibətləri dərinləşdirir. Lolanın yanında gecələyən, yaxasına gül taxılan professorun səhər gimnaziyaya gecikməsi, şagirdlərin lövhəyə çəkdikləri karikatura, yaranan qalmaqal, direktorun gəlişi yeni həyatın fəsadlarından xəbər verir. Direktorla boş sinifdəki söhbətdə Lola ilə evlənəcəyini bəyan edən, sevgilisinə gül və nişan üzüyü almaqla bu məsələni rəsmiləşdirmək istəyən professorun evlənmək təklifini eşidən Lolanın xırıltılı qəhqəhəsi artıq tora düşən şərin məğlubiyyətini səciyyələndirir. Toy mərasimində, arvadının professora həsəd aparmasından qeyzlənən fokşçunun «möcüzəsindən» yumurtalar peyda olduqda bəyin xoruz kimi banlaması, gəlinin qaqqıldaması filmin ideyasının açılışına yönələn tapıntıya çevrilir.



Gecə klubunun salonunda Lolanın açıqcalarını satmağa məcbur olan professorun daxili müqaviməti hadisələrin inkişafını gərginləşdirir. Lolanın corablarını belə geyindirən professorun əlindəki qaynar saçburanı divardakı təqvimin vərəqlərinə toxundurmaqla alışdırması ötən günlərin yandırıldığını səciyyələndirir və 1925-dən, 1929-cu ilə qədər keçən beş ilin zaman həllini obrazlı təqdimatla göstərir. Və artıq afişalarında «təlxək professor» təqdimatı da yazılan səyyari truppanın direktorunun pul və reklam marağının əksinə olaraq öz doğma şəhərindəki «Mavi mələk» gecə klubundakı premyerada iştirakdan çəkinən professor artıq sosial çalar alan ziddiyyəti qabardır. Truppaya yeni gələn pəhləvan Mazeppanın Lolayla mazaqlaşmasından hiddətlənən professorun pedaqoji fəaliyyəti önə çəkilməklə zorla səhnəyə itələnməsi attraksionların montajını appoqeyə qaldırır. Tamaçılar arasındakı keçmiş şagirdlərin gözü qarşısında şlyapasından göyərçin uçan, başına yumurta çırpılan professorun səhnə arxasından görünən pəhləvanla Lolanın sevişmələrinə dözməyərək fasiləsiz banlaması daxili üsyan kimi səslənir. Banlaya - banlaya üzərinə şığıdığı Lolanın güclə əlindən qurtulmasından sonra sarsılan professorun səhnədən səsi gələn sevgilisini arxada qoymaqla özünü birtəhər çatdırdığı gimnaziyanın auditoriyasında dünyasını dəyişməsi əsrin ideyasının təntənəsi kimi səslənir.

**Aydın DADAŞOV,**
*kinoşünas*